ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# “Ömür kitabının parçalarını yazıram”



“Məktəblərdə keçirilən görüşlərdən umacağımız nədir? İstəyirik ki, uşaqlarımız oxusunlar, mütaliə etsinlər. Ədəbiyyatımızı bilsinlər. Ədəbiyyatını bilməyən adamın millətə xeyri dəyə bilməz...”

FOTOLAR: Sabir Məmmədov /Global Media Group



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Binəqədi rayon 244 saylı tam orta məktəbdə keçirilən, Bakı Şəhər Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə layihəsi olan “Məktəbdə”nin budəfəki qonağı Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı idi. O, təhsil müəssisələrində ədəbiyyat adamları ilə belə görüşlərin keçirilməsini yüksək dəyərləndirdi: “Son vaxtlar məktəblər bir-birinin ardınca görüşə dəvət edirlər. Hesab edirəm ki, bu, təhsil həyatında çox uğurlu işdir. Bir ara belə görüşlər unudulmuşdu. Gənclərimizlə bizim aramızdakı körpüləri yandırmaq olmaz. Cavanlıq illərimizdə universitet həyatımızda yadda qalan ən yaxşı günlər yazıçılarımızla görüşlərdir. Mirzə İbrahimov, Süleyman Rəhimov, Məmməd Araz, Söhrab Tahirlə görüşlər taleyimizdə böyük rol oynayıb”.

### İRAN “FARSİSTAN” DEYİL, İRAN “TÜRKÜSTANDIR”

S.Rüstəmxanlı gənclik illərindən danışaraq, “Biz cavanlıqdan Azərbaycanın taleyi ilə maraqlanmışıq”, - deyə bildirdi: “Nə vaxt Azərbaycan müstəqil ola bilər?”, - deyə düşünmüşük. Ədəbiyyat dərnəklərinə gedirdik, amma ədəbiyyatdan çox Azərbaycanın müstəqilliyindən danışırdıq. “Güney və Quzey Azərbaycan nə vaxt birləşə bilər?”, - sualı bizi narahat edirdi. Həmin proseslər bu gün də davam edir. İndi görürsünüz, İranda nələr baş verir. Azərbaycanlıların çox hissəsi - 35-40 milyon insan orada yaşayır. Amma bunun siyasi gündəmə gəlməsi mümkün deyildi.



Azərbaycan Prezidentinin son iki çıxışı - “Bizim xaricdə yaşayanlarımız öz ana dilində oxumalıdırlar”, - fikirləri həyatımıza yeni bir rəng qatıb, birdən-birə canlanma yaradıb. Buradakıların çoxu, həmçinin Türkiyədə də çoxu bilmirdi ki, İran əhalisinin yarısı türkdür. İran “farsistan” deyil, İran “Türküstandır””.

### ÖNCƏ ANA DİLİNİZİ BİLİN

“Məktəblərdə keçirilən görüşlərdən umacağımız nədir? İstəyirik ki, uşaqlarımız oxusunlar. Ədəbiyyatımızı bilsinlər. Ədəbiyyatını bilməyən adamın millətə xeyri dəyə bilməz”, - deyə Xalq şairi dilimizə münasibətlə bağlı narahatlığını dilə gətirdi: “Bəzən deyirlər ki, filankəs Oksford və ya Harvard universitetini bitirib. Deyirəm, çox gözəl. Amma gərək bir Azərbaycan universitetini də qurtarsın. Gərək bir torpaq universiteti də bitirsin. Gərək öz dilini də bilsin. İngilis dilini bilmək məgər xalqı tanımaqdır? Öncə ana dilində oxumalısan”.

## “ƏDƏBİYYATA NƏ QƏDƏR MANEƏ QOYURLARSA, DAHA DƏRİNƏ GEDİR”



Məktəbin Ana dili və ədəbiyyat müəllimi “Azərbaycan nəsrinin hazırkı vəziyyəti necədir”, - deyə maraqlandı: “Bu millət bərəkətli millətdir. Bir istedadı gedəndə yerinə başqası, daha güclüsü gəlir. Rəssamlıqda, musiqi sahəsində, ədəbiyyatda həmişə bir-birlərini əvəz edən nəsillər gəlir. Ona görə Azərbaycan nəsri sovet dövründən fərqli olaraq daha ciddi mövzulara girişə bilir. Ədəbiyyata nə qədər maneə qoyurlarsa, daha dərinə gedir və sözünü demək üçün vasitə tapır. Ona görə həmişə yeni əsərlərimiz olacaq”.

“80-ci illərdə qələmə aldığınız Vətənin keçmişi, bu günü və işıqlı sabahının tərənnümü olan “Ömür kitabı”nın davamını yazmağı düşünürsünüzmü?”, - sualı şairi keçmişə qaytardı: “1985-ci ildə “Ömür kitabı” yazılanda ermənilər bizim tariximizi saxtalaşdırırdı. Bizim cavab vermək imkanımız yox idi. Həm Azərbaycanı tanıtmaq, həm cavab vermək üçün bir kitab yazdım. Düşünürdüm ki, kitab 5-10 min tirajla nəşr olunar. “Gənclik” nəşriyyatı kitabı 30 min tirajla buraxdı. Bir həftə sonra öyrəndim ki, hamısı satılıb. Metrolarda, küçələrdə kitabı əldə satırdılar. Sonra nəşriyyat kitabı 100 min tirajla buraxdı. Daha sonra təzədən 50 min, rus dilində də 50 min tirajla nəşr etdi. Beləcə, 300 minə yaxın tirajı çıxdı. O vaxt kitabı qızlara cehiz kimi verirdilər. Ermənilər o kitabı alıb Xankəndində yandırırmışlar. Vaxtilə 300 min tirajla çıxan kitabı “Şərq-Qərb” nəşriyyatı “Göy Tanrı” kitabı ilə birlikdə 1000 nüsxə ilə buraxdı. Çünki oxumuruq. Telefonu, səsli kitabları, sosial medianı başa düşürəm, amma oxumalı kitab ayrıdır. “Vətəndaşlığın əlifbası” ruh etibarı ilə “Ömür kitabı”nın davamıdır”.

### ÖMRÜMÜZ BOYU VAXT SIXINTISI VAR

“Kifayət qədər məşğul insansınız. Bölüşdürə bilmədiyiniz vaxtınız olurmu?”, - deyə soruşan şagirdin sualını S.Rüstəmxanlı belə cavablandırdı: “Birinci və ikinci kursda oxuyanda “Azərkitab”ın kitab dükanında kitabdaşıyan işləyirdim. Nərimanov rayonunda qarovulçu işlədim. Axşam işlə, gündüz oxu... Kirayədə qalırdıq. Dolanışıq lazım idi. Evə demişdim ki, mənə pul göndərməyin, özümü dolandıracağam. Ona görə bizim nə vaxt yatırıq, nə vaxt dururuq kimi reqlamentimiz olmayıb. Ömrümüz boyu vaxt sıxıntısı olub”.

Sabir Rüstəmxanlı yeni nəşrlərini məktəb kitabxanasına bağışladı. “Bunlar kitabxanada qalmaq üçün deyil, çox istəyərəm ki, uşaqlar bu kitabları vərəqləsinlər”, - deyə tövsiyə etdi.

## “MİLLƏTİMİN GÜCÜNƏ İNANIRAM”

Şagirdlər Xalq şairinin Qarabağ müharibəsi dövründəki yaradıcılığı ilə maraqlandılar. “Vətən Müharibəsi günlərində “Millətim” şeirini yazdınız. “Mənim yoluma bax, əzəldən haqdı”, - dediniz. Şeiri Qarabağın bir gün azad olunması inamı ilə yazmışdınız?”, - soruşan şagirdə cavab belə oldu: “Bu şeir 2006-cı ildə yazılıb. Amma oxumağa utanırdım. Sonra savaş başlayanda bəstəkar Elçin Cəfərov bu şeirə marş yazdı və bir neçə cavan dostu onu oxudular. Bu mahnı müharibənin ən çox oxunan mahnısı oldu. Bütün əsgərlər orduda bu mahnını oxuyurdular”.

### ƏSAS SİLAH SEVGİDİR...

Şagirdlərdən birinin “Xalq şairi Bəxtiyar Vahabzadə sizin haqqınızda belə deyib: “Sabir Rüstəmxanlı məhəbbətinin gülləsi ilə nifrətini hədəfə alan çox aydın bir şairdir”. Məhəbbətin gücünün yetmədiyi, hədəfinizdən yayınan nifrətiniz olubmu?”, - sualını S.Rüstəmxanlı təbəssümlə cavablandırdı: “Bəxtiyar Vahabzadə mənim müəllimim olmuşdu. Sinifdə onunla fikrimiz düz gəlməmişdi və məndən incimişdi. Sonra dostlaşdıq. Mənə görə kişi həm sevməyi, həm də nifrət etməyi bacarmalıdır. Əsas silah sevgidir, nifrət sonda gəlir. Nifrəti düşmənə edərsən. 30 il bizim içimiz nifrətlə doldu və püskürdü. Hamı deyirdi ki, bizim gənclərimiz vətənin nə olduğunu bilmirlər. Amma həyat göstərdi ki, belə deyil”.